azərsu

“AZƏRSU” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

BÜLLETEN

№ 03 (57) ● May-iyun 2018-ci il www.azersu.az Qaynar xətt - 955

“Su həyat deməkdir, təmiz su isə sağlam həyat deməkdir”

İlham Əliyev

TANAP- Şərqdən Qərbə açılan dəhliz

səh. 2, 3

Silahlı Qüvvələrin 100 illiyi münasibətilə hərbi parad keçirilib

səh. 4, 5

Xaçmaz və Xızıda içməli su və kanalizasiya layihələri yekunlaşıb

səh. 6, 7

Su təsərrüfatı və meliorasiya işçiləri peşə bayramını qeyd ediblər

səh. 8-10

TANAP- Şərqdən

İyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib. Mərasim bu möhtəşəm layihəh aqqındav ideoçarxın nümayişi ilə başlayıb.

TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından və Xəzərin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və Avropaya nəqlini nəzərdə tutur. Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TANAP Gürcüstandan və Türkiyənin 20 vilayətindən keçərək Yunanıstan sərhədinə qədər uzanır. Layihə ilə bağlı Azərbaycan ilə Türkiyə arasında Anlaşma Memorandumu 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair Saziş isə 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. TANAP layihəsi təbii qazın "Şahdəniz", eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətəm alikdir.

Mərasimin əvvəlində **SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak** çıxış ediblər. **Azərbaycan Prezidenti İlham Əliyev** çıxış edərək bildirib ki, TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olub: *"Azərbaycan qazının Avropa qitəsinə böyük həcmdə ötürülməsi haqqında son illər ərzində bir çox müzakirələr aparılmış və bir çox tədbirlər keçirilmişdir. Ancaq əfsuslar olsun ki, onların heç bir nəticəsi olmamışdır. Belə olan halda Türkiyə və Azərbaycan qərara gəldilər ki, biz özümüz yeni bir layihəni irəli sürək və bunun adını da biz birlikdə qoyduq – TANAP. TANAP üzrə anlaşmanı 2012-ci ildə İstanbul şəhərində Rəcəb Tayyib Ərdoğan və mən imzaladıq. O gün həmin imzalanma mərasimində biz bugünkü günü görmək arzumuzu ifadə etdik və Allah bizə bunu nəsib etdi. Biz bu illər ərzində böyük işlər gördük. TANAP layihəsinin icrası həm texniki, həm maliyyə cəhətdən çox mürəkkəb bir işdir. Ancaq bunu biz çox böyük müvəffəqiyyətlə icra etdik. Bu gün TANAP-ın istismara verilməsi qonşu və dost ölkələr üçün gözəl imkanlar yaradır. TANAP yeddi ölkəni, bir çox şirkətləri birləşdirir. Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir. Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi iki həftə bundan öncə - mayın 29-da Bakıda təşkil edilmişdir. Cənub Qaz Dəhlizi dörd böyük layihədən ibarətdir. "Şahdəniz-2" qaz yatağının*

Qərbə açılan dəhliz

işlənilməsi, - o yatağın ehtiyatları 1,2 trilyon kubmetrdir, - Cənubi Qafqaz Kəməri, TANAP və TAP layihəsi. Bu dörd layihənin üçü artıq reallaşıb, başa çatıb. TAP da 72 faiz icra olunub. Əminəm ki, yaxın iki il ərzində TAP layihəsi də tamamlanacaq və beləliklə, Avropanın 40 milyard dollar sərmayə tələb edən ən böyük infrastruktur layihəsi olan "Cənub Qaz Dəhlizi" icra edilmiş olacaqdır. Bu tarixi nailiyyət bizə imkan verəcək ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmişf ormadaç atdırılsın.

"Cənub Qaz Dəhlizi" enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Cənub Qaz Dəhlizinin önəmi məhz bundadır – enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi. Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazı yeni yollarla Türkiyəyə və Avropa bazarlarına çıxarılacaqdır. "Cənub Qaz Dəhlizi" həm yeni yollar, həm də yeni mənbə layihəsidir. Bu, sözün əsl mənasında, enerji şaxələndirilməsi məsələsinə xidmətgö stərir.

Bu böyük işlərin icrasında SOCAR, BOTAŞ və BP şirkətləri iştirak ediblər, onlar TANAP-ın səhmdarlarıdır. Mən onlara öz təşəkkürümü bildirmək istəyirəm. Bu işlərdə iştirak etmiş bütün şirkətlərə təşəkkürümü bildirmək istəyirəm ki, onlar bu böyük işi yüksək keyfiyyətlə və qısa müddət ərzində görə bildilər. Cənub Qaz Dəhlizi Avrasiyada yeni əməkdaşlıq, işbirliyi formatını təşkil edir. Əgər işimizin əvvəlində - 2000-ci illərin əvvəllərində Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlıq formatı yaranmışdırsa, bu gün qeyd etdiyim kimi, yeddi ölkə bu layihədə iştirak edir. Daha üç ölkə bizim gələcək tərəfdaşlarımız kimi bu layihədə iştirak edəcək. Biz çalışmalıyıq ki, Azərbaycan qazının Avropa qitəsinə çatdırılması istiqamətində daha böyük işlər görək və bizim əhatə dairəmiz daha geniş olsun.

Bir daha demək istəyirəm ki, bu gün tarixi bir gündür. Bu günün mümkünlüyü ancaq və ancaq güclü siyasi iradə nəticəsində olmuşdur. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı olmasaydı, bu layihə kağız üzərində qala bilərdi. Əlbəttə, bir daha demək istəyirəm, Türkiyənin xarici sərmayə üçün çox gözəl ölkə kimi özünü təqdim etməsi imkan verdi ki, Türkiyəyə böyük yatırımlar qoyulsun. Son illər ərzində təkcə Azərbaycan tərəfindən Türkiyə iqtisadiyyatına 13 milyard dollardan çox sərmayə qoyulubdur, növbəti illərdə bu rəqəm 20 milyard dollara çatacaqdır".

Sonra **Şimali Kipr xalqının lideri Mustafa Akıncı, Serbiya Prezidenti Aleksandr Vuçic, Ukrayna Prezidenti Petro Poroşenko və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan** çıxış ediblər.

Daha sonra TANAP kəmərinə qazın verilməsi mərasimi keçirilib.

Xatırladaq ki, uzunluğu 1805 kilometr olan TANAP boru kəmərinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək.

Silahlı Qüvvələrin 100 illiyi

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva paradda olublar.

Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edib.

Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olunub.

Paradda, həmçinin Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan, Özbəkistan, Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edib.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verib. **Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev** hərbi paradda iştirak edən şəxsi heyəti salamlayıb. Hərbi paradda nitq söyləyən dövlət başçısı bildirib ki, 100 illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin ən önəmli qərarlardan biri Azərbaycan Ordusunun yaradılması olub. Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonra, 1991-1993-cü illərdə ölkəmiz böyük fəlakətlə üz-üzə qalmışdı. Belə bir ağır vəziyyətdə Azərbaycan xalqı həmişə olduğu kimi, müdriklik göstərdi, ulu öndər Heydər Əliyevə müraciət etdi, onu hakimiyyətə dəvət etdi. Ancaq bundan sonra, ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət sabitləşdi və Azərbaycan bu ağır vəziyyətdən çıxa bildi. Azərbaycan 1993-cü ildən sonra inkişaf və tərəqqi yolu ilə gedir.

Ali Baş Komandan bildirib ki, Azərbaycan ordusu dünyanın güclü orduları sırasındadır. 2003-cü ildən bu günə qədər hərbi xərclər 15 dəfə artıb, ordumuz ən müasir silahlarla, texnika ilə təchiz edilib. Son illər yaradılan 20-dən çox hərbi zavodda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur. Son illər ərzində ən müasir texnika və silahlar alınıbdır. Onların arasında yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri – bütün bunlar bizim hərbi gücümüzü artırır. Deyə bilərəm ki, ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir: ***"Azərbaycan getdikcə güclənəcək. Biz inkişaf yolun-***

münasibətilə hərbi parad keçirilib

dayıq. Bizim qarşımızda bütün yollar açıqdır, üfüqlər aydındır. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək. Ermənistan bizimlə heç cür rəqabət apara bilmir və bilməyəcək. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi güc bizdədir, hərbi güc bizdədir, vətənpərvərlik ruhu bizdədir. Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır.

2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Sonra Silahlı Qüvvələrin şəxsi heyətinin və hərbi texnikanın təntənəli keçidi başlayıb.

Paraddan sonra Prezident İlham Əliyev Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə "Rəşadət" ordeni ilə təltif olunmuş general-polkovnik Zakir Həsənova, general-polkovnik Nəcməddin Sadıkova və general-leytenant Kərəm Mustafayevə həmin ordenləri təqdim etdi.

Xaçmaz şəhərində yeni su təchizatı və kanalizasiya sistemləri istismara verilib



Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2012-ci ildə başlanmış "Xaçmaz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nin icrası başa çatıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində iştirak edib.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlət başçısına "Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi barədə məlumat verib.

Bildirib ki, Azərbaycan Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən maliyyələşən "Xaçmaz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla Xaçmaz şəhərində 47 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Rayonun 5 kəndi də daxil olmaqla, layihədən 58 min nəfər faydalanacaq.

Xaçmaz şəhərini, həmçinin ətraf kəndləri keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etmək üçün şəhərin mövcud su mənbəyi olan Uçqun bulağı seçilib. Bu su mənbəyində aparılan laboratoriya analizləri suyun keyfiyyətinin mövcud standartlara uyğunluğunu təsdiqləyib. Araşdırma zamanı məlum olub ki, mənbənin məhsuldarlığı da optimal səviyyədədir. Suqəbuledici qurğularda əsaslı yenidənqurma işləri aparılaraq mənbənin məhsuldarlığı saniyədə 229 litrə və ya sutkada 19,8 min kubmetrə çatdırılıb, hər birinin həcmi 3 min kubmetr olan 2 anbar inşa olunub və su mənbəyindən götürülən suyun anbar kompleksinə nəqli məqsədilə 1,9 kilometr magistral su xətti çəkilib. Anbarlarda toplanan su ehtiyatının həcminə, eləcə də suyun bulanıqlıq səviyyəsinə SCADA sistemi vasitəsilə onlayn rejimdə nəzarət edilir.

Layihə çərçivəsində Xaçmaz şəhərində 148 kilometr içməli su şəbəkəsinin, şəhərin relyef baxımından ən yüksək hissəsində yeni salınmış yaşayış massivinin dayanıqlı su təminatı məqsədilə nasos stansiyasının, 136 kilometr kanalizasiya şəbəkəsinin və şəbəkə üzərində 10 min 390 baxış quyusunun inşası, hər evin və obyektin kanalizasiya şəbəkəsinə qoşulması təmin edilib. Eyni zamanda, tullantı suların təmizləyici qurğuya ötürülməsi məqsədilə 1,2 kilometr uzunluğunda əsas daşıyıcı kollektor tikilib.

Layihənin icrası zamanı yeni yaradılmış infrastruktur mənbədən tutmuş sonuncu istifadəçiyə qədər "Azərsu" ASC-nin Coğrafi İnformasiya Sisteminə işlənilib və bu məlumatlar rəqəmsal xəritədə öz əksini tapıb. Coğrafi İnformasiya Sisteminin bir elementi olan Bina-kimlik layihəsi isə abonent haqqında bütün məlumatların xəritə üzərindən alınmasına və çeşidli təhlillərin aparılmasına imkan verir. Buraya abonentin yaşadığı ünvan, əlaqə vasitələri, istifadə etdiyi suyun həcmi, ödənişləri və təhlil üçün lazım olan digər informasiyalar daxildir.

Hazırda sutkalıq məhsuldarlığı 20 min kubmetr olan tullantı sutəmizləyici qurğunun tikintisi üzrə tender prosesi yekunlaşmaq üzrədir. Qurğuda Xaçmaz şəhəri ilə yanaşı, Quba, Qusar şəhərlərinin, həmçinin Şahdağ Qış-Yay Turizm Kompleksinin də tullantı suları təmizlənib kənarlaşdırılacaq.

Layihə çərçivəsində Regional Sukanal İdarəsi üçün müasir tipli inzibati bina inşa olunub. Yeni layihənin icrasınadək Xaçmaz şəhərində 1950-1970-ci illərdə yaradılmış su təchizatı infrastrukturundan istifadə olunurdu. Şəhər əhalisinin yalnız 40 faizi mərkəzləşmiş qaydada içməli su ilə təmin edilirdi, kanalizasiya şəbəkəsi istismara yararsız vəziyyətə düşmüşdür.

Xızı şəhəri və Altıağac qəsəbəsində içməli su və kanalizasiya layihəsi yekunlaşıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də "Xızı şəhərində və Altıağac qəsəbəsində içməli su təchizatı sistemlərinin yenidən qurulması və kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin yekunlaşması ilə bağlı keçirilən mərasimdə iştirak edib.

Əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən dövlət başçısı bu əlamətdar hadisə münasibətilə sakinləri təbrik edib, həyata keçirilən sosial siyasətin müsbət nəticələr verdiyini vurğulayıb: **"Xızıda içməli su layihəsinin başa çatması ilə biz demək olar ki, şimal zonasının bütün şəhərlərinin içməli su problemini həll etmiş oluruq. Əvvəlki dövrlərdə Qusar, Quba, Şabran, Siyəzən şəhərlərinin, bu gün isə biz Xaçmaz şəhərinin içməli su layihəsinin açılışını qeyd etdik. Yəni, şimal zonasının şəhərlərinin içməli su ilə bağlı problemləri öz həllini tapıbdır. Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik etmək istəyirəm. Ümumiyyətlə, bildirmək istəyirəm ki, ölkəmizdə bütün sosial layihələr uğurla icra edilir".**

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov bildirib ki, Azərbaycan Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən birgə maliyyələşdirilən Xızı şəhəri və Altıağac qəsəbəsinin içməli su təchizatı sistemlərinin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması layihəsi 2030-cu ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Xızı şəhərində 3300, Altıağac qəsəbəsində isə 1500 nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Rayonun 3 kəndi də daxil olmaqla layihədən 6,3 min nəfər faydalanacaq. Xızı rayonunda yüksək məhsuldarlığa malik su mənbələri olmadığından yaşayış məntəqələrinin su təchizatının müxtəlif mənbələr hesabına təmin olunması layihələndirilib. Layihəyə əsasən Xızı şəhərinin və Altıağac qəsəbəsinin əsas su mənbəyi sayılan Dahardibidə məhsuldarlığı gündə 864 kubmetr, Qarsda məhsuldarlığı gündə 430 kubmetr, Şəfada məhsuldarlığı gündə 240 kubmetr və Yeddibulaqda məhsuldarlığı gündə 40 kubmetr olan sugötürücü qurğular inşa olunub. Ümumi tutumu 1400 kubmetr olan 4 anbar tikilib, mənbələrdən götürülən suyun anbar kompleksinə nəqli məqsədilə, ümumilikdə, 18 kilometr magistral su xətti çəkilib. Layihə çərçivəsində Xızı şəhərində və Altıağac qəsəbəsində 52,4 kilometr içməli su və 32,4 kilometr kanalizasiya şəbəkələrinin, həmçinin şəbəkə üzərində 1513 baxış quyusunun inşası başa çatdırılıb, hər bir evin və obyektin kanalizasiya şəbəkəsinə qoşulması təmin edilib.

Layihə çərçivəsində Xızı Sukanal İdarəsi üçün müasir tipli inzibati bina inşa olunub.

Hazırda Xızı şəhərində məhsuldarlığı sutkada 1500 kubmetr, Altıağac qəsəbəsində isə məhsuldarlığı sutkada 350 kubmetr olan tullantı sutəmizləyici qurğuların tikintisi üzrə tender prosesi yekunlaşmaq üzrədir.

Yeni layihənin icrasına qədər Xızı şəhərində 1985-1991-ci illərdə yaradılmış su təchizatı sistemləri istismar edilirdi. Şəhərdə mövcud 29 kilometr su şəbəkəsi istismara yararsız vəziyyətə düşdüyündən su təchizatı normal həyata keçirilmirdi. Altıağac qəsəbəsində 1980-ci illərin əvvəllərində yaradılmış içməli su təchizatı sistemi də istismar tələblərinə cavab vermirdi. Qəsəbə sakinlərinin 60 faizi mərkəzləşdirilmiş qaydada içməli su ilə təchiz edilirdi. Xızı şəhərində və Altıağac qəsəbələrində kanalizasiya sistemləri isə, ümumiyyətlə, mövcud olmayıb.

Sonra Prezident İlham Əliyev Xızı şəhərinə və Altıağac qəsəbəsinə içməli suyun verilməsini bildirən düyməni işə saldı.

Su təsərrüfatı və meliorasiya

"Azərsu" ASC və "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin kollektivi 5 iyun - Su təsərrüfatı və meliorasiya işçiləri günü peşə bayramını qeyd ediblər.

Hər iki qurumun kollektivi Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi yad edilib.

"Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı münasibətilə "Azərsu" ASC və "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanın su təsərrüfatı" mövzusunda konfrans keçirilib.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Əhməd Əhmədzadə ölkədə meliorasiya və su təsərrüfatının inkişafında ulu öndər Heydər Əliyevin böyük və tarixi xidmətləri olduğunu qeyd edib. Bildirib ki, qədim suvarma əkinçiliyi ölkəsi olan respublikamızda meliorasiya və irriqasiya işlərinə keçən əsrin əvvəllərində başlanılsa da, əsas inkişafa ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illərdə nail olunub. Həmin illərdə meliorasiya və su təsərrüfatı sahəsində quruculuq işləri geniş vüsət alıb, iri su anbarları, çoxlu sayda hidroqovşaqlar, nasos stansiyaları, texniki cəhətdən müasir meliorasiya və irriqasiya sistemləri tikilib istifadəyə verilib, suvarılan torpaqların ümumi sahəsi 1,5 dəfədən çox artıb.

1993-cü ildə ulu öndərin yenidən hakimiyyətə qayıdışı sayəsində meliorasiya və su təsərrüfatı öz inkişafının yeni mərhələsinə qədəm qoyub, bu sahəyə diqqət və dövlət qayğısı bərpa olunub, mövcud meliorasiya potensialının dağıdılmasının qarşısı alınıb, ondan daha səmərəli istifadə olunması yolları və gələcək inkişaf istiqamətləri müəyyənləşdirilib. Onun göstərişləri əsasında respublikaya ayrılan xarici investisiyalar, ilk növbədə, bu sahənin inkişafına yönəldilib, meliorasiya və su təsərrüfatı sahəsi özünün yeni, dayanıqlı inkişaf mərhələsinə qədəm qoyub.

Ə.Əhmədzadə qeyd edib ki, son dövrlərdə 127 min hektar yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə cəlb edilib. Mövcud meliorasiya və irriqasiya obyektlərinin istismarı xeyli yaxşılaşıb, 4 min 17 kilometr suvarma kanallarının, 2 min 486 kilometr kollektor-drenaj şəbəkələrinin bərpası, yenidən qurulması və tikintisi işləri həyata keçirilib, 379 min hektar suvarılan torpaqların su təminatı və 256 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılıb. Həmçinin 1960 subartezian quyusu qazılıb, sel və daşqınlara qarşı dağ çaylarında 200 kilometrə yaxın sahilbərkitmə, Kür-Araz çaylarında isə 900 kilometr uzunluğunda bəndlərin möhkəmləndirilməsi və hündürləndirilməsi işləri yerinə yetirilib.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov ölkə əhalisinin keyfiyyətli içməli su ilə təminatı istiqamətində bir sıra layihələrin uğurla başa çatdırıldığını, bir sıra layihələrin isə hazırda davam etdirildiyini bildirib. Ulu öndər Heydər Əliyevin təşəbbüskarı olduğu və 2010-cu ildə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilən Oğuz-Qəbələ-Bakı su kəməri Azərbaycanın müstəqillik illərinin ən böyük infrastruktur layihəsi kimi tarixə düşüb. Cey-

işçiləri peşə bayramını qeyd ediblər

ranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin, Külüllü su mənbəyinin, Şirvan-Muğan, Sabirabad-Saatlı, magistral su kəmərlərinin, həmçinin Xanbulançay, Mingəçevir və Quba sutəmizləyici qurğuları, ümumilikdə 30-dək yeni su mənbəyinin istismara verilməsi regionlarda əhalinin keyfiyyətli içməli su ilə təminatına mühüm töhfələr verib. Hazırda 50 şəhər və rayon mərkəzində su və kanalizasiya layihələrinin icrasına başlanılıb. İndiyədək həmin şəhərlərin 25-də həm su, həm də kanalizasiya şəbəkəsinin, 10-da isə su şəbəkəsinin tikintisi yekunlaşıb.

Bakı şəhəri və Abşeron yarımadasının sosial-iqtisadi inkişafını nəzərdə tutan dövlət proqramları çərçivəsində 60-dan çox yaşayış məntəqəsində su təchizatı və kanalizasiya layihələrinin icrasına başlanılıb.

Şəhər və rayon mərkəzləri ilə yanaşı, əhalisinin sayı 630 min nəfər olan 520 kənddə də içməli su təchizatının yaxşılaşdırılması ilə bağlı işlər görülüb. 2017-ci ildə imzalanan Sərəncama uyğun olaraq 28 rayonun 170 kəndində içməli su layihələri icra olunub və bu il daha 41 kənddə su layihələrinin icrasına başlanılıb.

Qeyd edilib ki, son illər icra edilən içməli su layihələri çərçivəsində məhsuldarlığı sutkada 689 min kubmetr olan 5 sutəmizləyici qurğu, 230 su anbarı və anbar kompleksi tikilib, 15 min

kilometrdən çox magistral və paylayıcı su, 3500 kilometrdən artıq kanalizasiya xətləri çəkilib, 308 artezian və subartezian quyusu qazılıb, 5 minə yaxın çoxmənzilli yaşayış binasının daxili kommunikasiya xətləri yenilənib. Görülmüş işlərin real nəticəsi olaraq, hazırda ölkə üzrə xidmət göstərilən əhalinin 67 faizi, Bakı şəhəri üzrə isə 81,5 faizi fasiləsiz içməli su ilə təmin edilir.

Xəzər dənizinə axıdılan tullantı sularının qarşısının alınması üçün 14 kilometr uzunluğunda Bayıl-Bibiheybət-Lökbatan, 15 kilometr uzunluğunda Novxanı-Sumqayıt kanalizasiya kollektorlarının inşası başa çatdırılıb, Bakı buxtasının sahili boyu mövcud xətlərin reabilitasiyası həyata keçirilib. Bununla da Dənizkənarı Milli Park, Dövlət Bayrağı Meydanı, Şıx, Novxanı və Sumqayıt çimərliklərinin əhatə etdiyi böyük bir ərazidə tullantı sularının dənizə axıdılmasının qarşısı alınıb.

Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi-şöbə müdiri Azər Əmiraslanov bu sahəyə göstərilən dövlət qayğısından danışıb. Prezidentin köməkçisi dövlət başçısının bir qrup su təsərrüfatı və meliorasiya işçisinin təltif edilməsi barədə sərəncamlarını oxuyub.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov meliorasiyav ə su təsərrüfatıs ahəsindəg örülən işlərin kənd təsərrüfatının inkişafına və əhalinin sosial rifahının yaxşılaşdırılmasına xidmət etdiyini bildirib.

Elmi-praktiki konfransın sonunda iştirakçılar adından Prezident İlham Əliyevə müraciət qəbul edilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin 04 iyun 2018-ci il tarixli sərəncamları ilə su təsərrüfatı sahəsində səmərəli fəaliyyətlərinə görə "Azərsu" ASC-nin 17 əməkdaşı fəxri adlar və medallarla təltif olunub. Təltif olunanlardan 2 nəfəri "Əməkdar mühəndis" adına layiq görülüb, 3 nəfər 3-cü dərəcəli "Əmək" ordeni, 12 nəfəri isə "Tərəqqi" medalı ilə mükafatlandırılıb.

Su təsərrüfatının inkişafında xidmətlər göstərmiş və əmək fəaliyyətində fərqlənən 100 əməkdaş "Azərsu" ASC sədrinin əmri ilə Fəxri Fərmana, 101 əməkdaş isə "Təşəkkürnamə"yə layiq görülüb.

Su təsərrüfatının inkişafında xidmətləri olan əməkdaşlara mükafatlar təqdim edilib

***5 iyun** - Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı ərəfəsində Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 3-cü dərəcəli "Əmək" ordeni və "Tərəqqi" medalı ilə təltif olunmuş, həmçinin "Əməkdar mühəndis" fəxri adı almış əməkdaşlara mükafatların təqdim olunması mərasimi keçirilib.*

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov təltif olunmuş əməkdaşları təbrik edərək bildirib ki, son illər su təsərrüfatı sektoru yeni inkişaf dövrünə qədəm qoyub. İstehlakçıların içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədi ilə möhtərəm Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkə miqyasında genişmiqyaslı işlər görülüb, mühüm layihələr həyata keçirilib. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına hesablanmış su təchizatı layihələrinin icrasında su təsərrüfatı işçilərinin böyük xidmətləri olub. Su təsərrüfatı və meliorasiya sahəsi işçilərinin əməyini yüksək qiymətləndirən Prezident İlham Əliyevin 14 may 2014-cü il tarixdə imzaladığı sərəncamla iyun ayının 5-i "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı təsis edilib. Hər il peşə bayramı ərəfəsində bir qrup su təsərrüfatı işçisi fəxri adlar və medallarla təltif olunur.

Prezident İlham Əliyevin 2018-ci il iyun ayının 4-də imzaladığı sərəncamlarla su təsərrüfatı sahəsində səmərəli fəaliyyətinə görə "Azərsu" ASC-nin 3 əməkdaşı 3-cü dərəcəli "Əmək" ordeninə, 2 əməkdaşı "Əməkdar mühəndis" fəxri adına, 12 əməkdaşı isə "Tərəqqi" medalına layiq görülüb. Eyni zamanda "Azərsu" ASC sədrinin əmri ilə əmək fəaliyyətində fərqlənən 100 əməkdaş "Fəxri Fərman", 101 əməkdaş isə "Təşəkkürnamə" ilə təltif olunub: *"Azərbaycan vətəndaşlarının sağlamlığının qorunmasına və sosial rifahının yüksəldilməsinə istiqamətlənmiş dövlət siyasətinə su təsərrüfatı işçiləri özünəməxsus töhfələr verməkdədir. Peşə bayramının təsis edilməsi və ənənəvi olaraq bayram ərəfəsində həmkarlarımızın mükafatlandırılması ölkə başçısının su təsərrüfatı işçilərinin əməyinə verdiyi qiymət, bu sahənin inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir. Əminəm ki, çoxminli su təsərrüfatı işçiləri bundan sonra da var qüvvəsi ilə çalışaraq qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirəcək, onlara göstərilən etimadı doğruldacaqlar".*

Sonra su təsərrüfatı sahəsində səmərəli fəaliyyətinə görə təltif olunmuş əməkdaşlara 3-cü dərəcəli "Əmək ordeni", "Tərəqqi" medalı, "Əməkdar mühəndis" fəxri adının vəsiqələri, "Fəxri Fərman" və "Təşəkkürnamə"lər təqdim olunub. Təltif olunan əməkdaşlar su təsərrüfatı işçilərinin əməyinə verdiyi qiymətə görə ölkə başçısına minnətdarlıqlarını bildiriblər. Çıxışlarda qeyd olunub ki, əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətə su təsərrüfatı işçiləri bundan sonra da öz töhfələrini verəcək.

Tullantı sularının idarə olunması sahəsində vəziyyət müzakirə edilib

"Azərsu" Açıq Səhmdar Cəmiyyətində ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə tullantı sularının idarə olunması sahəsində vəziyyət müzakirə olunub, tullantı sularının yaratdığı problemlərin aradan qaldırılması və vəziyyətdən çıxış yolları istiqamətində fikir mübadiləsi aparılıb. İcra olunan yağış və tullantı su layihələri barədə təqdimatlar keçirilib.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov qonaqları salamlayaraq qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən genişmiqyaslı ekoloji tədbirlərə "Azərsu" ASC də öz töhfələrini verməkdədir. Bu istiqamətdə son illər kompleks tədbirlər həyata keçirilir, Bakı şəhərində mövcud infrastruktur yenidən qurulur, yeni kanalizasiya kollektorları və xətləri çəkilir. Eyni zamanda rayon mərkəzləri və şəhərlərdə icra olunan layihələr çərçivəsində kanalizasiya infrastrukturu yaradılır, tullantı sutəmizləyici qurğuları tikilərək istifadəyə verilir.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, ətraf mühitin qorunmasını, təbii sərvətlərdən səmərəli istifadə olunmasını prioritet hesab edən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ekoloji problemlərin həlli istiqamətində zəruri tədbirlər həyata keçirilir. Əhalinin ekoloji cəhətdən təmiz içməli su ilə təmin edilməsi, su resurslarının mühafizəsi, Xəzər dənizinin sahil zolağının ekoloji tarazlığının qorunması istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. Görülən işlərlə yanaşı, tullantı sularının idarə olunması üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinin vacibliyini bildirib.

Sonra Bakı şəhəri və Abşeron yarımadasının su təchizatı və kanalizasiya sistemlərinin müasir standartlara uyğun yenidən qurulması məqsədilə 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla hazırlanmış Master Planın yağış və tullantı sularının idarə edilməsi bölməsinin təqdimatı olub.

Sənədə əsasən, 150 km-i tunel tipli olmaqla ümumilikdə 680 km kanalizasiya kollektorlarının, 6400 km kanalizasiya şəbəkəsinin, eləcə də məhsuldarlığı sutkada 1 milyon 400 min kubmetr olan 11 ədəd tullantı sutəmizləyici qurğunun tikintisi və yenidən qurulması layihələndirilib. Abşeron yarımadasındakı göllərdən tənzimləyici hövzə kimi istifadə etməklə 900 km uzunluğunda yağış kollektorlarının tikintisi Master Planda əksini tapıb.

Bakı şəhərində formalaşan tullantı sularının təmizlənərək kənarlaşdırılmasında ən böyük paya malik Hövsan Aerasiya Stansiyasında yenidənqurma işləri aparılaraq stansiyasının məhsuldarlığının sutkada 640 min kubmetrə, Sumqayıt şəhərində və ətraf ərazilərdə yaranan tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə hazırda məhsuldarlığı sutkada 100 min kubmetr olan tullantı sutəmizləyici qurğunun gücünün 2 dəfə artırılması nəzərdə tutulur. Azərbaycan hökuməti və Koreya Respublikası İxrac-İdxal Bankının birgə maliyyələşdirdiyi layihə çərçivəsində Pirşağı qəsəbəsində məhsuldarlığı sutkada 40 min kubmetr layihələndirilən bioloji tipli müasir tullantı sutəmizləyici qurğunun tikintisinin davam etdirildiyi qeyd olunub.

Tullantı sularının təmizləyici qurğulara yönəldilməsi məqsədilə Azərbaycanda ilk dəfə innovativ texnologiyalardan istifadə edilməklə tunel tipli kanalizasiya kollektorlarının tikintisinə başlanılıb. Bayıl-Bibiheybət-Lökbatan, Xocasən-Binəqədi-Xırdalan, Bilgəh-Pirşağı, Dərnəgül-Zığ-Hövsan, Novxanı-Sumqayıt kollektorları kanalizasiya infrastrukturunun yaxşılaşdırılmasına və Xəzər dənizinə təmizlənmədən axıdılan tullantı sularının qarşısının alınmasına hesablanıb. 14 km Bayıl-Bibiheybət-Lökbatan, 15 km Novxanı-Sumqayıt kanalizasiya kollektorlarının istismara verilməsi, eləcə də Bakı buxtasının sahili boyu mövcud xətlərin reabilitasiyası Dənizkənarı Milli Park, Bayraq meydanı, Şıx, Novxanı və Sumqayıt çimərliklərinin əhatə etdiyi böyük bir ərazidə dənizə axıdılan tullantı sularının qarşısını alıb.

Sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssislərinin Xəzər dənizinin ekoloji vəziyyəti ilə bağlı apardıqları monitorinqlərin təqdimatı olub. Diqqətə çatdırılıb ki, Xəzər dənizinin Xaçmaz rayonundan Astaraya qədər bütün sahil zolaqlarında və dənizdə mütəmadi monitorinqlər aparılır, dənizə axıdılan sulardan nümunələr götürülür, onların üzərində fiziki, fiziki-kimyəvi, mikrobioloji və ekotoksikoloji təhlillər aparılır. Bakı şəhəri və ətraf rayon ərazilərində bəzi çirkləndirmə mənbələrinin aradan qaldırılması üçün təkliflər irəli sürülüb.

Müzakirələrin gedişində gələcəkdə bu sahədə hər iki qurumun əlaqəli işləmələri, dənizə axıdılan tullantı sularının qarşısının alınması üçün birgə təkliflərin hazırlanması və tədbirlərin görülməsi barədə razılığa gəlinib.

Oğuz rayonunun 3 kəndinin içməli su təchizatı yaxşılaşdırılıb

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq içməli su çatışmazlığının müşahidə edildiyi kənd və qəsəbələrin su təchizatının yaxşılaşdırılması tədbirlərid avame tdirilir.

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən dövlət investisiyası hesabına Oğuz rayonunda icra olunan layihələr yekunlaşıb. Müqəddəs Ramazan ayında rayonun Astarxanovka və Vladimirovka kəndləri keyfiyyətli içməli su ilə təmin olunub.

Kəndlərə içməli suyun verilməsi münasibətilə Astarxanovka kəndində keçirilən açılış mərasimində Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov regionlarda icra edilən kommunal infrastruktur layihələrinin əhəmiyyətindən danışıb. Bildirib ki, Oğuz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi başa çatıb, hazırda kəndlərin içməli su təchizatının yaxşılaşdırılması istiqamətində tədbirlərg örülür.

"Azərsu" ASC-nin sədr müavini Seymur Seyidov kəndlərin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə həyata keçirilən layihələr barədə məlumat verib. Bildirib ki, son illər əhalisinin sayı 630 min nəfər olan 520 kənd və qəsəbədə içməli su layihələri icra olunub. 2018-ci ildə əhalisinin sayı 61 min nəfər olan 41 yaşayış məntəqəsində yeni su təchizatı sistemləri yaradılacaq. Bu kəndlərin 11-də işlər dövlət investisiya layihəsi, 30-da isə Prezident İlham Əliyevin "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 09 aprel 2018-ci il tarixli Sərəncamına əsasən həyata keçirilir. Dövlət investisiya layihəsi çərçivəsində Oğuz rayonunun Astarxanovka, Vladimirovka və Qarabulaq kəndlərində yeni su təchizatı infrastrukturları yaradılıb.

Tədbirdə çıxış edən kənd sakinləri bildiriblər ki, indiyədək içməli suya olan tələbatlarını əsasən, çay və bulaq sularını uzaq məsafədən daşımaq hesabına ödəyirdilər. Sakinlər bu sahədəki problemlərin həllinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Oğuz rayonunun kəndlərini keyfiyyətli içməli su ilə təmin etmək üçün su mənbəyi Balaşüm-Söyüdlü magistral su kəməri seçilib. Layihə çərçivəsində kəndlərdə 20 km magistral və şəbəkə su xətləri çəkilib, əhalinin ümumi istifadəsi üçün 34 ədəd bulaq quraşdırılıb. Yeni layihənin icrasından Astraxanovka, Vladimirovka və Qarabulaq kəndinin 2000-dək sakini faydalanıb.

29 km uzunluğunda Balaşüm-Söyüdlü magistral su kəməri rayonun Xaçmaz kəndi yaxınlığındakı bulaq və çay sularından qidalanır. 2012-ci ildə icra edilmiş layihə çərçivəsində sugötürücü qurğular, ümumi tutumu 4600 kubmetr olan 11 ədəd su anbarı, magistral xətlər və paylayıcı su şəbəkələri inşa edilib. Yaradılmış infrastruktur hesabına Oğuz rayonunun Xaçmaz, Böyük Söyüdlü, Kərimli, Bayan, Bucaq, Muxas və Baş Daşağıl kəndinin 20 minədək sakininin içməli su təchizatı əsaslı şəkildə yaxşılaşdırılıb.

2018-ci ildə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən dövlət investisiya layihəsi çərçivəsində Oğuz rayonu ilə yanaşı, Xızı, Ağdaş, Ucar və Masallı rayonlarının 11 kəndində içməli su layihəsi həyata keçiriləcək. Bu layihələrdən 15 min nəfər kənd sakini faydalanacaq.

Göyçay rayonunun İkinci Ərəbcəbirli kəndinin içməli su problemi həll edilib

"Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 09 aprel 2018-ci il tarixli Sərəncamına uyğun olaraq Göyçay rayonunun İkinci Ərəbcəbirli kəndində icra olunan layihə yekunlaşıb.

Kəndə içməli suyun verilməsi münasibətilə təşkil olunmuş tədbirdə **Göyçay Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İkram Vəliyev** regionların sosial iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Göyçay rayonunda icra olunan layihələrdən danışıb. Bildirib ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində kəndlərdə həyata keçirilən içməli su layihələri ölkə rəhbərliyinin regionların inkişafına göstərdiyi xüsusi diqqətin bariz nümunəsidir.

"Azərsu" ASC-nin sədr müavini Seymur Seyidov ötən il Göyçay rayonunun 14 kəndində içməli su layihələrinin icra olunduğunu xatırladaraq 40 minədək sakinin su probleminin həll edildiyini bildirib. Sədr müavini qeyd edib ki, Prezident İlham Əliyevin imzaladığı sərəncama uyğun olaraq bu il 13 rayonun 30 kəndində içməli su layihəsi icra olunacaq. Artıq kəndlərdə tikinti-quraşdırma işlərinə başlanılıb və ilk layihə Göyçay rayonunun İkinci Ərəbcəbirli kəndində yekunlaşıb.

Qeyd edək ki, İkinci Ərəbcəbirli kəndində su təchizatı sistemləri mövcud olmayıb. Kənd əhalisi uzun illər arx sularını duruldaraq istifadə edib. Azərbaycan hökuməti və Asiya İnkişaf Bankının birgə maliyyələşdirdiyi "Su təchizatı və kanalizasiya investisiya proqramı" çərçivəsində Göyçay şəhərinin su və kanalizasiya infrastrukturunun yenidən qurulması ətraf kəndlərin də içməli su təminatı üçün imkanlar yaradıb. İkinci Ərəbcəbirli kəndi Göyçay şəhərinə yaxın məsafədə yerləşdiyindən kəndə içməli suyun şəhər şəbəkəsindən verilməsi qərara alınıb.

İcrasına 2018-ci ilin aprel ayında başlanılmış layihə çərçivəsində Göyçay şəhərindən İkinci Ərəbcəbirli kəndinə 2 km uzunluğunda magistral su xətti çəkilib. Kənd ərazisində 5 km paylayıcı su şəbəkəsi yaradılıb, əhalinin ümumi istifadəsi üçün 33 ədəd bulaq quraşdırılıb. Tikinti-quraşdırma işləri qısa müddətdə başa çatdırılıb və icra olunan layihədən 1500-dək sakin faydalanıb.

Prezident İlham Əliyevin "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 9 aprel 2018-ci il tarixli Sərəncamına əsasən, respublikanın 13 rayonunun 30 yaşayış məntəqəsində içməli su layihələri icra olunacaq. Bu layihələr çərçivəsində kəndlərdə 13 subartezian quyusu qazılacaq, 8 ədəd su anbarı, 195 km su xətti inşa ediləcək. Dayanıqlı su təchizatı məqsədilə 672 ədəd bulaq, 4 su qülləsi, 9 nasos stansiyası quraşdırılacaq. Bu layihələrdən 30 kəndin 45 min nəfər sakini faydalanacaq.

2018-ci ildə "Azərsu" ASC tərəfindən dövlət investisiya layihələri də daxil olmaqla əhalisinin ümumi sayı 61 min nəfər olan 41 yaşayış məntəqəsində içməli su layihəsi həyata keçiriləcək.

"Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 mart 2017-ci il tarixli Sərəncamı çərçivəsində ötən il 28 rayonun 170 yaşayış məntəqəsində içməli su təchizatı sistemləri yaradılıb və bu layihələrdən 271 min nəfər faydalanıb.

Sayğac göstəricilərinin təqdim edilməsi elektron xidməti istifadəyə verilib

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti istehlakçılara göstərilən müştəri xidmətlərinin asanlaşdırılması, bu sahədə şəffaflığın və operativliyin təmin edilməsi məqsədilə müasir informasiya texnologiyalarının tətbiqini davam etdirir. "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq "Azərsu" ASC tərəfindən sayca 12-ci - "Əhali qrupu üzrə istehlakçıların sayğac göstəricilərini təqdim etməsi və hesab fakturanın formalaşdırılması" adlı elektron xidməti stifadəyəv erilib.

Yeni xidmətin təqdimatına həsr olunmuş mətbuat konfransında **"Azərsu" ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Cəbrayıllı** son illər elektron xidmətlərin tətbiqi dairəsinin genişlənməsi və bu xidmətlərdən istifadənin əhəmiyyətindən danışıb. Bildirib ki, "Azərsu" ASC tərəfindən indiyədək 11 növdə elektron xidmət istifadəyə verilib. Sayca 12-ci olan "Əhali qrupu üzrə istehlakçıların sayğac göstəricilərini təqdim etməsi və hesab fakturanın formalaşdırılması" adlı xidmət mexaniki sayğacları olan əhali qrupu abonentləri üçün nəzərdə tutulub. Mövcud qaydalara görə mexaniki sayğaclar üzrə fakturaların (borc bildirişlərinin) verilməsi üçün sayğac göstəriciləri nəzarətçilər tərəfindən oxunmalıdır. Bunun üçün mənzillərə daxil olmaq və sayğaclara baxış keçirmək zərurəti yaranır. Bəzi hallarda abonentlər mənzildə olmadıqda və ya nəzarətçinin mənzilə daxil olmasına şərait yaradılmadıqda sayğac göstəricilərinin oxunması mümkün olmur və ya qeyri-dəqiq məlumatlar verilir. Bu da sonradan bir sıra anlaşılmazlıqlara səbəb olur. Yeni xidmətin tətbiqindən sonra abonentlər sayğac göstəricilərini fərdi şəkildə, elektron qaydada təqdim edəb iləcəklər.



"Azərsu" ASC-nin İnformasiya və Kommunikasiya Texnologiyaları Departamentinin rəisi Emil Əhmədov "Əhali qrupu üzrə istehlakçıların sayğac göstəricilərini təqdim etməsi və hesab fakturanın formalaşdırılması" adlı elektron xidmətin təqdimatını edib. Bildirib ki, bu xidmətdən www.e-gov.az portalında qeydiyyatdan keçmiş şəxslər istifadə edə bilərlər. Bunun üçün portalın xidmətlər bölməsində "Azərsu" ASC, daha sonra "Əhali qrupu üzrə istehlakçıların sayğac göstəricilərini təqdim etməsi və hesab fakturanın formalaşdırılması" elektron xidmətis eçilməlidir.

Müraciətin qeydiyyata alınması üçün vətəndaşlar abonent kodunu, sayğacın zavod və plomb nömrələrini, sayğacın son göstəricisi və oxunma tarixi barədə məlumatları təqdim etməli, sayğacın həmin dövrə olan şəklini fayl formasında (pdf, jpg, jpeg, png formatında) qoşmaya əlavə etməlidir. Eyni zamanda müraciət edən şəxs əks əlaqə üçün işlək telefon nömrəsi və ya elektron poçt ünvanını göstərməlidir. Əgər bir ünvanda bir neçə sayğac olarsa, onda hər bir sayğacın məlumatı və şəkli ayrılıqdad axiled ilməlidir.

Daxil edilən məlumatlar düzgün olduğu halda "Müraciət et" düyməsi seçilir və "Müraciətiniz qeydiyyata alındı. Xidmətimizdən istifadə etdiyiniz üçün sizə təşəkkür edirik." bildirişi ekranda əks olunur. Bundan sonra müraciət cavablandırılması üçün müvafiq struktur bölməsinə yönləndirilir. Elektron müraciət qeydiyyata alındığı gündən ən geci 5 iş günü müddətində cavablandırılır. Bundan sonra təqdim olunmuş bildiriş əsasında abonent ödəniş apara bilər. Əgər abonentin təqdim etdiyi hər hansı məlumatda yanlışlıq və ya anlaşılmazlıq aşkar edilərsə, bu barədə onun elektron poçt ünvanına məlumat ötürülür və məlumatın dəqiqləşdirilməsit ələbo lunur.

Müraciətin nəticəsi olaraq formalaşan fakturanı abonent www.e-gov.az portalından əldə edə bilər. Xidmətdən istifadə etmək üçün sistemə doğru məlumatlar daxil edilməlidir, əks halda müraciət etibarsız sayılır və sorğu icra edilmir. Müraciət formasındakı uyğunsuzluqlar və yanlışlıqlar aradan qaldırılanadək müraciətin qəbulundani mtinaed ilir.

Məktəblilər Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksində

İçməli su sektorunda dünyanın unikal qurğularından sayılan Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi peşəsindən və yaşından asılı olmayaraq hamı tərəfindən maraqla qarşılanır. Mütəmadi olaraq müxtəlif sahələri təmsil edən mütəxəssislərin, elm adamlarının, xarici qonaqların, tələbələrin kompleksə səfərləri təşkil olunur. Kompleksin budəfəki qonaqları AzərbaycanB ritaniyaK ollecinin5- cis inif şagirdlərio lub.

Ekskursiya müddətində əvvəlcə məktəblilərə suyun faydası, təmizlənməsi və əhaliyə çatdırılması, sudan qənaətlə istifadə, su ehtiyatlarının mühafizəsi barədə maaripləndirici məlumatlar verilib. Bildirilib ki, həyat mənbəyi olan sudan qənaətlə istifadə hər bir kəsin mənəvi borcudur. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə hər il 1 milyonadək insan çirkli sudan istifadə nəticəsində həyatlarını itirir. Çirkli sudan istifadə nəticəsində yaranan xəstəliklərdən daha çox uşaqlar əziyyət çəkir. UNİCEF-in məlumatına görə, təmiz sudan istifadə edə bilmədiyi üçün hər gün 800 uşaq dünyasını dəyişir. Su qıtlığı hazırda bütün bəşəriyyətin problemidir və bu baxımdan sudan səmərəli istifadə ilə bağlı erkən yaşlarda uşaqlarda zəruri vərdişlər formalaşdırılmalıdır.

Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi ilə tanışlıq çərçivəsində şagirdlərə Azərbaycan və ingilis dillərində Prezident İlham Əliyevin rəhbərliyi ilə əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verib. Bildirilib ki, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi dünyanın ultrasüzgəc texnologiyasına əsaslanan ən böyük sutəmizləyici qurğusudur. 2011-ci ildə təməli qoyulmuş kompleks 2015-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib. Məhsuldarlığı saniyədə 6,6 kubmetr və ya sutkada 570 min kubmetr olan kompleksdə suyun emalı 5280 ədəd membran tipli süzgəclərdə aparılır. Ənənəvi təmizləmə qurğularından fərqli olaraq bu kompleksdə su heç bir kimyəvi təmizlənmə aparılmadan tam qapalı, avtomatik rejimdə, mexaniki üsulla təmizlənir. Burada emal olunan su Dünya Səhiyyə Təşkilatının, digər beynəlxalq qurumların qəbul etdiyi standartlara tam cavab verir. Qeyd olunub ki, kompleks 2016-cı ildə Abu-Dabi şəhərində keçirilmiş Qlobal Su Sammitində dünyanın ən önəmli su layihələrindən biri seçilib. Bu kompleks hesabına Bakı şəhəri və Abşeron yarımadasının böyük hissəsi, ümumilikdə 1 milyondan çox sakin yüksək keyfiyyətli içməli su ilə təmin olunub.

Kompleksə tanışlıq çərçivəsində məktəblilər mərkəzi idarəetmə sistemi - SCADA otağında idarəetmə proseslərini izləyiblər.

Azərbaycan Britaniya Kollecinin şagirdləri bu ekskursiyanın onlarda böyük təəssürat yaratdığını qeyd edib, gələcəkdə belə qurğularda çalışmaq arzusunu dilə gətiriblər. Kollecin müəllim və şagirdləri Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin xatirə kitabına ürək sözlərini yazıblar. **Azərbaycan Britaniya Kollecinin baş müəllimi Alan Cons** bu səfərdən böyük zövq aldıqlarını bildirib: ***"Azərbaycan dövləti və xalqı belə bir qurğuya, əraziyə sahib olduğu üçün fəxr etməlidir. Bu kompleks çox möhtəşəmdir, kompleksdə böyük həcmdə su emal olunur. Bizə yaradılan yüksək şəraitə görə təşəkkür edirik".***

Qeyd olunub ki, ekskursiya ilə bağlı şagirdlər arasında rəsm müsabiqəsi keçiriləcək və ən yaxşı əl işləri "Azərsu" ASC-yə təqdim olunacaq.

Kompleksə tanışlıqdan sonra məktəblilər Dünya Su Şurası İdarə Heyətinin üzvlərinin 2017-ci ilin martında keçirilmiş I Bakı Beynəlxalq Su Həftəsinə xatirə olaraq saldıqları yaşıllıq sahəsi ilə tanış olublar. Şagirdlərə Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin yerləşdiyi ərazidə aparılmış abadlıq və yaşıllaşdırma işləri barədə də məlumat verilib.

Mərkəzi Laboratoriya sərişt əlilik proqramında iştirak edib

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Mərkəzi Laboratoriyası öz fəaliyyətini beynəlxalq standartların tələblərinə uyğun davam etdirir. Mərkəzi Laboratoriya dünyanın inkişaf etmiş ölkələrində fəaliyyət göstərən laboratoriyaların təcrübəsini əsas götürərək beynəlxalq sərişt əlilik testi proqramlarına qoşulur.

Laboratoriyanın içməli suyun fiziki-kimyəvi analizlərin aparılması şöbəsi yenidən Böyük Britaniyanın FAPAS şirkəti tərəfindən təşkil olunan sərişt əlilik test proqramında iştirak edib. Laboratoriya bu proqrama içməli suyun 13 fiziki-kimyəvi göstəricisi ilə qoşulub. Təqdim olunan analiz nəticələri proqramı uğurla başa vurmağa imkan yaradıb.

Bu nailiyyət Mərkəzi Laboratoriyada analizlərin yüksək keyfiyyətlə aparılmasının, burada tətbiq olunan metodların düzgünlüyünün, kadrların peşəkarlığının göstəricisidir.

Qeyd edək ki, "Azərsu" ASC-nin Mərkəzi Laboratoriyası 16 sentyabr 2013-cü ildə fəaliyyətə başlayıb. Ümumi sahəsi 1800 kvadratmetr olan laboratoriya binası içməli su və tullantı

suları bölmələrindən ibarətdir. Laboratoriyada Almaniya, Fransa, ABŞ, Yaponiya və digər ölkələrin beynəlxalq səviyyədə tanınmış şirkətlərinin avadanlıqları və cihazları quraşdırılıb. Bu cihaz və avadanlıqların köməyi ilə içməli su və tullantı sularının fiziki-kimyəvi və bakterioloji göstəricilərini təyin etmək, operativ, dəqiq və etibarlı analizlər aparmaq mümkündür. Mərkəzi Laboratoriyada içməli və tullantı sularının öyrənilən parametrlərinin sayı 105-ə çatdırılıb.

"Azərsu" ASC-də qanvermə və göz müayinəsi aksiyaları keçirilib

İrsi qan xəstəliklərindən əziyyət çəkən xəstələrə kömək məqsədi daşıyan, minlərlə insan üçün həyati əhəmiyyət kəsb edən bu könüllü humanitar aksiyanın "Azərsu" Açıq Səhmdar Cəmiyyətində keçirilməsi artıq ənənə halını alıb. Növbəti qanvermə aksiyasında "Azərsu"ASC-nin idarə və müəssisələrində çalışan əməkdaşlar fəal iştirak edib.

B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən hər bir donorun sağlamlığı aksiyadan əvvəl yoxlanılıb. Müayinə nəticəsində sağlamlığı qan götürməyə imkan verən şəxslər müəyyənləşdirilib. Ümumilikdə aksiyada "Azərsu" ASC-nin 200-dək əməkdaşı iştirak edib. Donorlar qan xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün könüllü qan verməyin xeyirxah və savab iş olduğunu diqqətə çatdırıb, belə aksiyalarda yaxından iştirak etməyin vətəndaşlıq borcu olduğunu qeyd ediblər.

B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfiziologiya İnstitutunun əməkdaşları bildiriblər ki, götürülən qan nümunələri laboratoriyada hərtərəfli müayinə edildikdən sonra onlardan talassemiyalı, hemofiliyalı və digər irsi qan xəstələrinin müalicəsində istifadə olunacaq.

İşçilərin tibbi xidmətlərdən istifadəsini asanlaşdırmaq və bu xid-

mətlərdən güzəştli şərtlərlə istifadəsini təmin etmək məqsədilə "Azərsu" ASC və "Dünyagöz" Xəstəxanasının birgə təşəbbüsü ilə Cəmiyyətin əməkdaşları üçün ödənişsiz göz müayinəsi təşkil edilib.

Tibbi müayinənin keçirilməsində məqsəd bəzən əlamətsiz keçən göz xəstəliklərinin erkən mərhələlərdə aşkarlanması, görmə çətinliklərinin araşdırılması, görmə qabiliyyətinin qorunması olub. Ümumilikdə 3 gün ərzində davam edən aksiyada "Azərsu" ASC-nin 600-dək əməkdaşı tibbi müayinədənk eçib.